**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XXI ƏSRDƏ ABŞ-ın İRAN İSLAM RESPUBLİKASININ NÜVƏ PROQRAMI İLƏ BAĞLI SİYASƏTİ: GEOSİYASİ ASPEKTLƏR

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Carçıyeva Nərgiz Elçin qızı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Bakı Avrasiya Universitetində yerinə yetirilmişdir

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Gülzar İsaxan qızı İbrahimova**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Afət Ağabala qızı Güləliyeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Xaqan Əlirza oğlu Balayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış FED 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ______ akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: ______ siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: ______ siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. 40 ildən artıqdır ki, ABŞ-ın regional siyasətində ABŞ-İran münasibətləri mühüm yer tutur. 1979-cu ildə ilk dəfə olaraq İran ideoloqlarının İslam dövləti haqqında layihəsi həyata keçirildi: İran İslam Respublikası (İİR) yaradıldı. Buna görə də Amerika yeni dövlətə münasibətdə siyasətin işlənib hazırlanması və həyata keçirilməsi təcrübəsini sıfırdan başladı. 2000-ci illərdə İran yeni regional beynəlxalq arxitekturanın formalaşmasında fəallığını artırdı. Bu dövrdə ABŞ-da teokratik rejimin düşmənçilik anlayışı formalaşdı və onun yeritdiyi siyasət birmənalı olaraq Amerikanın təhlükəsizliyini təhdid kimi qiymətləndirilməyə başladı. İran rejiminin ABŞ-a qarşı düşmən mövqedə qalması, davamlı təcavüzkar ritorika ABŞ üçün açıq bir təhlükə kimi dəyərləndirildi və və bu ölkəyə qarşı iddiaların siyahısı mahiyyətcə dəyişməz olaraq qalmaqdadır. Bu baxımdan tədqiqat mövzusunun aktuallığı dəyişən beynəlxalq münasibətlər sistemlərində Amerika administrasiyalarının ABŞ-ın İrana qarşı siyasətinin formalaşması və həyata keçirilməsinə yanaşma xüsusiyyətlərinin təhlili ilə müəyyən edilir. Eləcə də, XXI əsrdə ABŞ-ın İran İslam Respublikasının nüvə proqramı ilə bağlı siyasətinin geosiyasi aspektləri həm regional, həm də qlobal ölçüdə bir çox səbəblə aktuallıq daşıyır. Bu mövzunun aktuallığı bir neçə əsas faktorla bağlıdır.

Birincisi, İranın regional rolu ilə bağlı təhlükəsizlik məsələləri var. İranın Yaxın Şərqdə mübahisəli və nüfuzlu dövlət kimi rolu, xüsusilə də nüvə ambisiyaları ilə bağlı təhlükəsizliklə bağlı narahatlıqları artırır. İranın potensial nüvə silahı əldə etməsi regional təhlükəsizlik balansını dəyişdirə və qlobal tərksilah səylərini sarsıda bilər.

İkincisi d*iplomatik və çoxtərəfli yanaşmalardadır*. ABŞ-ın İranın nüvə proqramı ilə bağlı siyasəti Barak Obamadan Co Baydenə qədər ABŞ-ın dəyişən diplomatik strategiyalarını vurğuladı. Bu çoxtərəfli sazişlərin uğuru və ya uğursuzluğu ABŞ-ın xarici siyasətinin Rusiya və Çin də daxil olmaqla digər böyük güclərlə danışıqlar aparmaq qabiliyyətinin əsasını təşkil edir.

Üçüncüsü *beynəlxalq sanksiyalar və neft qiymətlərinə və enerji təhlükəsizliyinə təsirdir.*İran qlobal enerji bazarında əsas neft ixracatçısı kimi mühüm oyunçudur. ABŞ təzyiq vasitəsi kimi istifadə etddiyi sanksiyaların effektivliyi və nəticələri onun qlobal siyasətdə öz təsirini

saxlamağa yanaşmasının mühüm hissəsidir. İrana qarşı sanksiyaların tətbiqi qlobal neft bazarlarına təsir edib və ABŞ-ın İrana münasibətindəki hər hansı dəyişiklik enerji qiymətlərinə və tədarük zəncirlərinə təsir göstərə bilər.

Dördüncüsü *ABŞ-ın geosiyasi maraqları və qlobal hegemonluğudur.* İranın nüvə proqramı, ABŞ-ın global gücünü qorumağa çalışan dövlət kimi siyasətini və regional düzəni dəyişdirmək məqsədi güdən digər qüvvələrin qarşısını almağa yönəlik strategiyalarına təsir edir. Bu məsələnin qlobal səviyyədə aktuallığı, böyük güclər arasında nüvə silahlarının yayılmaması ilə bağlı müqavilələrin önlənməsi baxımından mühümdür.

Beşincisi d*axili siyasi müzakirələrdir.* Respublikaçılar və Demokratların problemlə bağlı fərqli fikirlərə malik olması ABŞ-ın İrana qarşı siyasətinin gələcək istiqamətini gözlənilməz edir, ABŞ xarici siyasətindəki daha geniş ideoloji meylləri əks etdirir.

Altıncısı b*eynəlxalq hüquq və multilateral yanaşmalardır.* İranın nüvə proqramı ilə bağlı məsələlər, həmçinin beynəlxalq hüququn müxtəlif aspektləri ilə əlaqəlidir. ABŞ-ın və digər dövlətlərin nüvə silahlarının yayılmasına qarşı verdiyi reaksiyalar, BMT-nin Təhlükəsizlik Şurası və digər beynəlxalq qurumlar vasitəsilə koordinasiya edilir.

Bütün qeyd edilən amillərlə yanaşı mövzunun aktuallığı eləcə də onun Yaxın Şərqdə regional təhlükəsizlik, beynəlxalq münasibətlərdə qüvvələr balansı, nüvə silahının yayılmasının qarşısını almaq üçün diplomatik səylərin effektivliyi və 21-ci əsrin daha geniş geosiyasi sabitliyi kimi əsas qlobal problemlərlə kəsişməsindədir. ABŞ-ın İranın nüvə proqramı ilə bağlı siyasətini başa düşmək ABŞ-İran münasibətlərinin gələcək trayektoriyasını anlamağa deyil, həm də qlobal güc strukturlarının necə inkişaf edəcəyini, regional təhlükəsizlik tədbirlərinin necə dəyişəcəyini, qlobal nüvə silahlarının yayılmaması rejiminin buna necə uyğunlaşacağını proqnozlaşdırmaq üçün çox vacibdir. Odur ki, ABŞ-ın İranın nüvə proqramına qarşı siyasətinin geosiyasi aspektlərini araşdırmaq regional və qlobal miqyasda əhəmiyyətli təsirlərə malikdir. Bu siyasət, dünya gücləri arasında qarşılıqlı əlaqələrin, beynəlxalq təhlükəsizliyin və regional düzənin necə formalaşacağına böyük təsir göstərir, dünya birliyinin müxtəlif hissələrinin qarşılıqlı asılılığı kontekstində əhəmiyyət kəsb edir.

İran ətrafındakı vəziyyət, əsasən, NPR rejiminin qurulmasının ilkin

başlanğıcına xas olan problem və səhvlərin məhsuludur. İranın nüvə böhranı bu problem və səhvləri aydın şəkildə vurğulamaqla beynəlxalq ictimaiyyətin üzləşdiyi problemlə-rin tam dərinliyini qiymətləndirməyə imkan verdi. Odur ki, XXI əsrin əvvəllərində ABŞ-ın İranın nüvə siyasəti ilə bağlı geosiyasi yanaşması və Fars körfəzində geosiyasi hədəfləri, NPR ilə bağlı qlobal və regional səviyyədə beynəlxalq qarşılıqlı fəaliyyət və əməkdaşlıq formatlarının xüsusiyyətləri, qloballaşma şəraitində ABŞ-ın İranın nüvə silah əldə etməsi ilə bağlı xarici siyasətinin əsas prinsipləri və inkişaf istiqamətlərinin araşdırılması tədqiqatın aktuallığını gücləndirir.

Dissertasiya mövzusu Azərbaycan elmi fikrində ilk dəfədir ki, tədqiq edilir. Problem həmçinin əcnəbi siyasi təfəkkürdə də elmi cəhətdən yetərincə işlənmədiyindən onun xüsusi təhlilini tələb edir. Mövzunun bəzi xüsusiyyətləri müxtəlif həcmli və məzmunlu bir sıra xarici müəlliflərin əsərləri üçün xarakterikdir. Belə ki, elmi fikirdə mövzu ilə əlaqəli bir neçə tədqiqat qrupu ayırmaq olar. NPR rejiminin mövcud vəziyyətinin təhlili, "İran məsələsi"nin tədqiqi ilə "beyin mərkəzləri" adlandırılan ABŞ tədqiqat institutları məşğul olur[1]. Şərti olaraq, NPR-ə həsr olunmuş nəzəri işləri iki böyük qrupa bölmək olar. I qrupda, "texnoloji determinizm" tərəfdarları tərəfindən təmsil olunur. Onun əsas elementinə görə bütün ölkələrin nüvə silahına sa-hib olmağa çalışması şərtidir və yeganə məhdudlaşdırıcı amil onların texnoloji qüsursuzluğudur[2]. II qrupa "motivasiya təhlili" məktəbinin işi daxildir. Bu yanaşmanın konseptual əsasını realizm və neorealizm siyasi məktəblərinin müddəaları təşkil edir və müəlliflər kifayət qədər müxtəlif nəzəriyyələr[3] təqdim edirlər. Əsərlərin arasında bir dövlətin "nüvə klubuna" qoşulmaq istəyinə təsir edən bəzi parametrləri nəzərə alan rasional çəkindirmə konsepsiyası kimi yüksək ixtisaslaşmış və geniş həcmli olanları var. V. Evseev vəb. tədqiqatlar NPR, nüvə materiallarının mühafizəsi, saxlanması və dövriyyəsi, nüvə terrorizmi, ixraca nə-

[1] Institute for Science and International Security; https://isis-online.org/;Stockholm International Peace Research Institute; 270. Williamson S. R., Reardon, S.L. and Rearden, S. L., Origins of U.S. Nuclear Strategy, 1945-1953.

[2]Buzan B., Jones C. The Logic of Anarchy: Neorealism to Structural Realism N.Y.: Columbia University Press, 1993, 267 p.; Davis Z.S. The Realist Nuclear Regime // Security Studies. -1993. -21 p.;Waltz K.N. Nuclear Myths and Political Realities// The American Political Science Review. Vol. 84

[3]Phillips D. Pragmatism Needed in US-Iran Relations; March 7, 2004.

zarət problemi kontekstində "İranın nüvə məsələsi"nə həsr edilmişdir[4]. ABŞ-ın xarici siyasətinin öyrənilməsi sahəsində amerikaşünas tədqiqatçılardan T. Şakleina, S. Roqov, A. Kokoşin və b. əsərləri ABŞ administrasiyalarında güc balansının xüsusiyyətləri və xarici siyasət qərarlarının, İranla bağlı siyasətin işlənib hazırlanması və qəbulu prinsipləri haqqında təsəvvür əldə etməyə imkan versə də, bu tədqiqatlarda ABŞ-İran münasibətlərinin hərtərəfli təhlili yoxdur[5].

S.Zadonckiy və V.Evseyevin əsərləri[6] İranın müasir siyasətinin doktrinal əsasını, İranın hərbi gücünün əsası kimi İranın nüvə və raket proqramlarını öyrənmək, İran nüvə böhranının xronologiyası, "İran sahəsində" əsas oyunçuların mövqelərini təhlil edir.

Qərb müəlliflərinin tədqiqatları arasında tədqiq olunan mövzuya konstruktiv yanaşma üstünlük təşkil etmişdir. M. Martellini, R. Redally[7] və başqaları kimi avropalı analitik və ekspertlərin mövqeyi İranın milli nüvə proqramı ilə bağlı balanslı və obyektiv qiymətləndirmələri ilə səciyyələnir. Bir qrup tədqiqatçıların[8] əsərlərində İsrail İran münasibətləri və orada ABŞ-ın rolu elmi təhlil təhlil edilir. ABŞ və İsrailin İran məsələlərinə dair elmi-analitik ədəbiyyatının fərqli xüsusiyyəti ondan ibarətdir ki, tədqiqatın əhəmiyyətli bir hissəsində İran beynəlxalq silahların yayılmaması rejimini pozan və məqsədi özünün nüvə başlıqları arsenalını yaratmaq istəyən bir ölkəkimi göstərilir. Müvafiq olaraq, bu təhlükəyə qarşı mübarizənin ən effektiv üsulu NPR ilə mübarizə siyasətinin alətlər dəsti hesab olunur. Mövzunun elmi işlənməsinin təhlili NPR rejiminin vəziyyəti, ABŞ-ın xarici siyasəti, İranın nüvə proqramının nəzəri və tətbiqi baxımdan müəyyən həcmdə iş və

[4] Евсеев В.В., Сажин В.И. Иран, уран и ракеты. -М.: Ин-т БВ, 2009; Калядин А. Роль принуждения в стратегии нераспространения оружия массового уничтожения // Мировая эко- номика и международные отношения. -2003.

[5] Шаклеина, Т.А. «Доктрина Клинтона» и будущее американской внешней политики // США: экономика, политика, идеология. 1997

[6] Евсеев В.В. Военно-политические аспекты иранской ядерной проблемы. — М.: Ин-т проблем развития науки РАН, 2010; Задонский С.М. Ядерная программа Ирана и российско-американские отношения. - ИИИиБВ, -2002

[7]Martellini, M. and Redaelli, R. "Towards a New Security Order in the Middle East and Towards a Strategic Role of Iran," Institute for Political and International Studies (IPIS), Tehran, Iran, January 13, 2004.

[8] Özekmekçi, M. "Türkiye'nin Doğu Sınırında Yeni Bir Güç: ÇİN; Dennis, Ross. The Threat of War is Only Way to Achieve Peace with Iran. Сайт Washington

tədqiqatların aparılmasından xəbər versə də, ABŞ-ın İranın nüvə proqramı ilə bağlı siyasəti və onun geosiyasi aspektləri praktiki olaraq işlənməyib. Bunu nəzərə alaraq tədqiqatın obyekti, mövzusu, məqsəd və vəzifələri müəyyən edilmişdir.

**Tədqiqatın obyekti**. XXI əsrdə ABŞ-ın nüvə proqramı ilə bağlı siyasətidir. **Tədqiqatın predmeti** XXI əsrdə ABŞ-ın İİR-nın nüvə siyasətinə yanaşmasıdır.

**Tədqiqatın məqsədi** XXI əsrdə ABŞ-ın İİR-nın nüvə proqramı ilə bağlı siyasəti və onun geosiyasi təsirinin kompleks şəkildə araşdırmaqdan ibarətdir. **Məqsədin həyata keçirilməsi üçün aşağıdakı əsas vəzifələr:**

-XXI əsrin ilk on ilində ABŞ-ın İİR-nın nüvə silahının inkişafına qarşı yürütdüyü xarici siyasətinin təkamülünü təyin etmək;

-XXI əsrdə Amerikanın regional xarici siyasət strategiyasında İİR-nın nüvə proqramının yeri və rolunu, eləcə də İranın nüvə siyasəti kontekstində ABŞ-ın Fars körfəzində geosiyasi hədəflərini müəyyənləşdirmək və araşdırmaq;

-Müxtəlif administrasiyalarda ABŞ-ın İrana qarşı nüvə siyasətinin formalaşmasına əsas amillərin təsir dərəcəsini təhlil etmək;

-Amerika siyasətinin davamlılığının görünən aspektlərini müəyyən etmək, həmçinin ABŞ-İran münasibətlərində nüvə probleminə hər bir administrasiyanın yanaşmasının fərdi xüsusiyyətlərini müəyyənləşdirmək və araşdırmaq;

-İranın nüvə proqramının inkişafı, Yaxın və Orta Şərqdə beynəlxalq terror təşkilatlarının fəaliyyətinin dəstəklənməsi istiqamətində Vaşinqtonun Tehrana qarşı iqtisadi sanksiyalarının effektivlik dərəcəsini aşkar etmək**;**

-Tehranın nüvə siyasətinin formalaşması prosesində İranın ali dini lideri və prezidentlərinin nüvə ambisiyalarını təhlil etmək;

-Nüvə proqramı kontekstində İran geosiyasətinin əsas istiqamətlərini araşdırmaq;

- 2001-ci ildən bəri ABŞ-ın İrana qarşı xarici siyasətindən qaynaqlanan fərqli xüsusiyyətləri təhlil etmək müəyyənləşdirilmişdir.

**Dissertasiyanın elmi yeniliyi. D**issertasiya mövzusu xarici akademik fikirdə hərtərəfli xüsusi elmi tədqiqat obyekti olmamış, Azərbaycan akademik fikrində isə ilk dəfədir ki, tədqiq edilir. Dissertasiyanın elmi yeniliyi göstərir ki:

-ABŞ xarici siyasətinin bəzi geosiyasi aspektlərinin qlobalist nöqteyi-nəzərdən regionalist müstəviyə dəyişdirildiyi dönəmdə İranın nüvə proqramına qarşı siyasətinin təkamülü araşdırılıb, nəzərdən keçirilən dövr ərzində ABŞ-İran münasibətlərinin inkişafındakı əsas problemlər müəyyən edilib;

-ABŞ və İran hökumətlərinin əsas rəsmilərinin İranın nüvə proqramı ilə bağlı mövqeləri müqayisəli təhlil edilib və ABŞ-ın İrana münasibətdə siyasətinin formalaşması ilə bağlı bir sıra məsələlərə yanaşma fərqləri müəyyən edilib.

- Müəyyən edilib ki, dünyada, Yaxın və Orta Şərqdə, xüsusən də İranda gedən müasir siyasi proseslər Amerikanın xarici siyasətinə birbaşa təsir göstərib.

- ABŞ-ın İrana qarşı xarici siyasətinin formalaşması prosesində Kapitoliya ilə Ağ Ev arasında gedən daxili siyasi mübarizə və Amerika hakimiyyətinin XXI əsrin əvvəllərindən günümüzədək ABŞ-İran qarşıdurması ilə bağlı mövqeyinin hərtərəfli öyrənilməsi və təhlili nəticəsində müəyyən olunub ki, İranın xarici siyasət strategiyası Amerika respublikaçı və demokrat siyasətçiləri arasında ABŞ-ın YŞ kursu ilə bağlı siyasi fikir ayrılıqlarının yaranmasına böyük ölçüdə təsir göstərib.

- XXI əsrdə ABŞ-ın İİR-nın Nüvə proqramı ilə bağlı və mühüm geosiyasi aspektləri kompleks şəkildə araşdırılmış, xüsusilə:

- Sübut edilib ki, XXI əsrdə ABŞ-ın "demokratiyanı təşviq etmək", İranda hakim rejimi dəyişdirmək və nüvə silahının əldə olunmasını dayandırmaq üçün xarici siyasəti müəyyən olunmuş müddətdə istənilən nəticəni vermədi.

- Amerika rəhbərliyinin ölkələrinə "təhlükə" gördüyü ruhani rejim siyasətinə qarşı Ağevin əsas şikayətləri qalsada, onların keyfiyyət komponenti və prioriteti dəyişdi: Soyuq müharibə başa çatdıqdan sonra "təhlükələrin" əksəriyyəti əsasən siyasi məna qazandı və sonra nüvə proqramı ilə əlaqələndirilməyə başlandı.

-ABŞ-ın İran siyasətində əsas problem İranın nüvə proqramı deyil, onun Yaxın Şərqdə qüvvələr balansının dəyişdirilməsi və sferaların yenidən bölüşdürülməsinin açarı olmasındadır.

-ABŞ-ın İran siyasətində əsas problem İranın nüvə proqramı deyil, onun Yaxın Şərqdə qüvvələr balansının dəyişdirilməsi və sferaların yenidən bölüşdürülməsinin açarı olmasındadır.

-Amerikanın İİR-na qarşı sanksiyaları İran hökumətinin bey-

nəlxalq terrorizmə dəstək siyasətinin dəyişdirilməsinə və nüvə silahı və qitələrarası ballistik raketlərin yaradılması proqramlarının hazırlanmasına əhəmiyyətli təsir göstərə bilmədi.

-Nüvə proqramı ətrafında İrana qarşı tətbiq etdiyi sanksiyaların səmərəsizliyi qanunsuz fəaliyyətdə şübhəli bilinən ölkəyə təsir etmək üçün adekvat beynəlxalq hüquqi metodların olmadığını göstərir. Belə vəziyyət gələcək proliferativ dövlətlər üçün nümunə və fəaliyyət üçün bələdçi ola bilər.

-P5+1 nüvə sazişi ölkələr arasında "yumşaq güc"ün növbəti nümunəsi kimi baş tutsa da, nəticəsiz oldu. Çünki, Vaşinqtonun "yumşaq güc" prisnipi İranın nüvə silahı əldə edə bilməsinə maneə ola bilmir.

-ABŞ-ın liberalizmə söykənən siyasi arenada "yumşaq güc"ün tətbiqi prosesinin uğursuzluğu onu öz hegemonluğuna xidmətdən və İran ali liderinin ilk gündən ortaya qoyduğu realist mövqedən qaynaqlanır. İran siyasi hakimiyyəti öz geosiyasi vəziyyətini konkret qiymətləndirir və bölgədəki strateji hədəfləri getdikcə daha çox əhəmiyyət kəsb edir. Bölgədə regional dəyişikliklərin bilavasitə İranla bağlılığı onlar üçün siyasi tənliklərin həllini İran nəzərə alınmaqla zəruri edir.

Tədqiqatın elmi əhəmiyyətini müəyyən edən və müdafiəyə təqdim **edilən müddəalar aşağıdakılardır**:

1.Tədqiq olunan dövr ərzində ABŞ-ın İran siyasətində: İİR-nın geosiyasi baxımdan əhəmiyyətinin əsaslı şəkildə dərk edilməsi, orada qurulan siyasi rejiminin rədd edilməsi və problemin mahiyyətinin nüvə proqramının özündə deyil, onun Yaxın Şərqdə qüvvələr balansının dəyişdirilməsi və sferaların yenidən bölüşdürülməsinin açarı olması kimi 3 vektor saxlanıldı.

2.İran rəhbərliyində sərt xətt tərəfdarlarını zəiflətmək məqsədi güdən "çəkindirmə" siyasəti daha uzaq bir məqsədə – İran siyasi rejiminin mahiyyətinin keyfiyyətcə dəyişməsinə, onun transformasiyasına nail olmaq üçün mühüm alət idi. Bu strateji oriyentasiya, ABŞ-ın hakim siyasi elitasındakı bütün qüvvələr tərəfindən bölüşdürülürsə də, taktiki məsələlərdə onlar fərqli yanaşmalar göstərdilər.

3. ABŞ hökumətinin "çəkindirmə" siyasətini həyata keçirməsi onun İranda amerikapərəst qüvvələrin yaradılmasına nail olmaq istəyi və İran rəhbərliyinin "xomeynizm" doktrinasına, onun "inqilab ixracı" prinsipinə daimi sadiqliyi, teokratik rejimin sabitliyi və gücü ilə bağlı

siyasətə möhkəm sadiq qalmasında idi.

4. Amerika rəhbərliyi arasında İrana qarşı siyasətlə bağlı konsensus olmayıb. ABŞ-ın "şahin siyasətçiləri" sanksiyaların sərtləşdirilməsini və İranın beynəlxalq aləmdən siyasi təcrid olunmasını müdafiə edirdilər. "Sülh siyasətçiləri" isə dövlətlərarası qarşıdurmanın mənfi nəticələrinə inanır və onların fikrincə, ABŞ-İran münasibətlərinin ilkin şərt irəli sürmədən bərpası üçün Vaşinqtonla Tehran arasında birbaşa ikitərəfli danışıqlara başlanmalı idi.

5. ABŞ-ın İran probleminə yanaşmasının xüsusiyyətləri 2001-2004-cü illərdə Buş administrasiyasında aqressiv və birtərəfli, İsrailyönümlü ABŞ xarici siyasətinin prinsiplərini müdafiə edən, Ağ Evin xarici siyasət konsepsiyasının formalaşması prosesinə mühüm təsir göstərən neokonservatorların müstəsna iştirakının ilə müəyyən edilmişdir.

6. Prezident C.Buş və vitse-prezident R.Çeyni tərəfindən müdafiə olunan Amerika iş adamlarının praktiki maraqları neokonservatorların ideoloji postulatları ilə üzvi şəkildə əlaqələndirilmiş, ideologiya və biznes maraqlarının belə "simbiozu" C.Buşun hakimiyyətinin xüsusi, fərqləndirici xüsusiyyəti olub onun kabinetinin Yaxın və Orta Şərqin nəhəng regionuna diqqətinin artmasını şərtləndirmişdir.

Ağ Evin İranın siyasi və iqtisadi təcrid olunması ilə bağlı beynəlxalq ictimaiyyəti cəlb etmək səyləri aparıcı dövlətlərin İİR-a münasibətdə Amerikanın deyil, öz maraqlarını rəhbər tutması səbəbi ilə məhdudlaşmışdır. Bu sahədə mühüm uğur BMT TŞ-nın 9 iyun 2010-cu il tarixli 1929 saylı qətnaməsinin qəbul edilməsidir.

8. XXI əsrin ikinci onilliyində prezident B.Obama və administrasiyası ilk illər diplomatiyaya daha çox üstünlük vermiş, hərbi gücdən istifadə və rejim dəyişikliyi variantlarını gündəmə gətirməməyə çalışmış, sələflərindən fərqli olaraq, BMT və aparıcı qlobal aktorlarla əməkdaşlıqda fəaliyyət göstərməyə əhəmiyyət vermiş, gözlənilən nəticəni əldə edə bilmədikləri üçün sonradan sələflərinin mövqeyinə yaxınlaşaraq, bu kontekstdə siyasi təzyiq və sanksiyalara üstünlük vermişdir.

9. Prezident D.Trampın BHFP-nı Amerikanın milli təhlükəsizlik maraqlarını qoruya bilmədiyinə qərarı və birtərəfli qaydada ondan imtina etməsi ABŞ maraqları baxımından yanlış idi və bu İranın nüvə məqsədlərinə çatmasına yol açmış oldu.

10. Prezident Bayden BHFP-nı "ölü" müqavilə adlandırsa da, İranın nüvə silahı yaratmasının qarşısını almaqda hərbi gücdən isti-

fadəni istisna etməsə də, qərar qəbulunda tərəddüdlər davam etdikcə, İranda nüvə silahının əldə edilməsi artıq an məsələsidir. Bu isə ABŞ-ın apardığı mübarizədə məğlubiyyəti deməkdir.

11.Ali Dini Lideri A. Xameneinin dəfələrlə kompromisə şərait yaratmayan və ölkəsinin prezident D.Trampın 2018-ci ilin mayında nüvə sazişindən çıxmasına qarşı durmağa davam edəcəyini təmin edən sərt yanaşması, onun ABŞ-la imzalanmış müqavilələrə etibar etməyin mümkün olmadığına və nüvə proqramının ABŞ-ın İrana təzyiq, təcrid və zəiflətmək, İranda rejim dəyişikliyinə zəmin hazırlamaq üçün sadəcə bir bəhanə olduğuna dair əsas inancının sübutu kimi qiymətləndirilir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarında** Waltz K.N., Sagan S.D., Davis Z.S., Frankel B., Buzan B., Solingen E., Allison G., P.Lavoy, Osipov, F. Barnaby, F. Jahanpourun[9] əsərlərindən istifadə olunmuş, beynəlxalq münasibətlərin müasir nəzəri modelləri və tədqiqatın terminoloji aparatı geniş şəkildə təqdim edilmişdir.

Dissertasiya işinin təhlilində araşdırılan mövzunun siyasi, eləcə də hüquqi və faktiki aspektlərinin öyrənilməsi baxımından mühüm görünən mənbələr qrupundan istifadə edilmişdir.

ABŞ icra hakimiyyəti orqanlarının materialları və ABŞ qanunvericilik orqanlarının materialları daxil olduğu *rəsmi sənədlər*. Onlar xronoloji çərçivədə Amerikanın xarici siyasətinin məqsəd, vəzifə və istiqamətləri, müasir dünyanın strukturu və ABŞ və İranın ondakı yeri barədə ölkə rəhbərliyinin fikirlərini əks etdirir, ilk növbədə, ABŞ-ın2002, 2010 və 2018-ci il ildə qəbul olunan Milli Təhlükəsizlik Strategiyası[10] tərəfindən təqdim olunur.

ABŞ hökumətinin 2001-ci ilin sentyabrından 2023-cı ilin sentyabrınadək xarici siyasətin müxtəlif sahələri üzrə, o cümlədən 2002, 2003, 2006-cı il KQS ilə Mübarizə üzrə Milli Strategiya, Senata təqdim

---

[9] Buzan B., Jones C. The Logic of Anarchy: Neorealism to Structural Realism (New Directions in World Politics) N.Y.: Columbia University Press, 1993; Frank Barnaby. Iran's nuclear activities. OxfordResearchGroup. 2006; Waltz K.N., Sagan
S.D. The Spread of Nuclear Weapons: A Debate Renewed. New York: W.W.

[10] National Strategy for Combating Terrorism, September 2006; National Security, Strategy 2010; The Bush National Security Strategy: What Does 'Pre-emption' Mean // Strategic Comments. 2002;Project for the New American Century. last updated: October 16, 2019

olunan *hesabatlar*[11] və s. Onlar ABŞ Prezidentinin Sərəncamları ilə də təmsil olunan ABŞ hüquq sisteminin tərkib hissəsidir, Amerika dövlətinin bütün hakimiyyət orqanları üçün məcburidir, deklarativ xarakter daşımır, ABŞ-ın İranla bağlı real siyasətini göstərir. Prezident sərəncamlarını təqribən iki qrupa bölmək olar. Birincisi, İİR-a nüvə və raket texnologiyaları, mal və xidmətlərin tədarükçüsü olan beynəlxalq münasibətlərin bir qrup subyektinəqarşı sanksiyaların tətbiqi barədə məlumatı ehtiva edir. İkincisində ABŞ prezidentinin İİR ilə bağlı fövqəladə vəziyyətin ölkə siyasətinin uzadılması barədə məlumatlar yer alır[12]. Bu qrup sənədlər məzmunca qısadır, ABŞ prezidentinin İrana münasibətdə fövqəladə vəziyyəti uzatdığı hüquqi aktları sadalayır. İcra Fərmanlarının özəlliyi bütün sənədlərin eksterritorial xarakter daşımasıdır. Yəni, qanunlar İrana nüvə və raket texnologiyaları, mal və xidmətlərin tədarükü ilə məşğul olan və ya görülən xarici şirkətlərə və digər ölkələrin hökumətlərinə şamil edilirdi və bu xüsusiyyət əməkdaşlıq etmək istəyən ölkələr arasında ən böyük narazılığa səbəb olurdu.

Bu mənbələr qrupu ABŞ-ın Müdafiə Departamenti, MKİ və Milli Kəşfiyyat Direktoru kimi ABŞ təhlükəsizlik və kəşfiyyat nazirlikləri və idarələrinin hesabatları ilə təmsil olunur. Hesabatların açıq hissəsində yer alan məlumatlar əsasında ABŞ təhlükəsizlik və kəşfiyyat orqanlarının İranın nüvə proqramı ilə bağlı mövqeyini təhlil etməyə və eləcə də müxtəlif illərin sənədlərində bu strukturların nümayəndələrinin tədqiq olunan problemə baxışlarında dəyişiklikləri izləməyə imkan verir. ABŞ MKİ-nin 2007-ci il "İran: Nüvə sahəsində niyyətlər və imkanlar" adlı açıq hesabatı[13] ABŞ MKİ-nin məsələnin konkret qiymətləndirməsini əks etdirirdi. Hesabatda İranın nüvə silahı əldə etmək niyyətində ol-

[11] Sokolski H.A. The Nuclear Nonproliferation Treaty and Peaceful Nuclear Energy," testimony before the House Subcommittee on International Terrorism and Nonproliferation. Washington, DC, March 2, 2006

[12] Administration of Barack Obama, 2012 Executive Order 13599-Blocking Property of the Government of Iran and Iranian Financial Institutions February 5, 2012; Continuation of National Emergency Declared by Executive Order № 12170: Notice of the President of the United States, November 9, 1990; Notice of Continuation of the National Emergency With Respect to Iran: Extension of Executive Order 12170, November 9,2005

[13] Treverton, Gregory F. CIA Support to Policymakers: The 2007 National Intelligence Estimate on Iran's Nuclear Intentions and Capabilities. RAND Corporation.-2013; Iran: Nuclear Intentions and Capabilities,2007

madığı, İranın 2003-cü ilin payızında nüvə proqramını dayandırdığı və İran rəhbərliyinin nüvə silahı yaratmaq imkanını faktiki olaraq nəzərdən keçirmədiyi vurğulandı. Hesabatın tezisləri Ağ Evin və Dövlət Departamentinin İranın açıq-aşkar nüvə silahı əldə etmək ardınca getməsinə aid davamlı iddiaları ilə tamamilə ziddiyyət təşkil edirdi. ABŞ kəşfiyyatının bu hesabatı ABŞ-ın İranın nüvə silahı yaratmaq istəyini təsdiqləyən və ya təkzib edən etibarlı məlumatlara malik olmadığını göstərdi.

*ABŞ qanunvericilik orqanlarının materialları*. Bu qrup mənbələr "İran məsələsi"nin müxtəlif aspektləri üzrə ABŞ qanunverici orqanının mövqeyini anlamaqda vacibdir. Konqresin mövqeyinin öyrənilməsi zərurəti Amerika dövlətinin qanunverici orqanının ölkənin xarici siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində oynadığı roldan irəli gəlir. Bu mənbələr qrupuna Qanun layihələri, qanunlar, düzəlişlər, Konqresin qətnamələri, hesabatları, dinləmələri, üzvlərindən məktublar, mesajlar daxildir.

Konqresin qətnamələri Konqresin İİR-nın BAEA ilə bağladığı mühafizə sazişinə əməl etməməsi və İranın nüvə silahı hazırlamaq üçün nəzərdə tutulmuş fəaliyyətlərə cəlb edilməsi ilə bağlı dərin narahatlığını ifadə edir və bu kateqoriya mənbələr ABŞ hüquq sisteminin ayrılmaz hissəsidir. ABŞ Konqres aktları eksterritorial xarakter daşıyır. Buş və sələflərinin İranın nüvə proqramını inkişaf etdirməsi ilə bağlı Konqresin mövqeyində davamlılıq müşahidə olunub.[14] Qanunverici orqanın ayrı- ayrı nümayəndələrinin mövqelərini müəyyən etmək üçün ABŞ Konqresinin Senat və Nümayəndələr Palatasının materiallarından istifadə edilib. *ABŞ Konqresinin hesabatlarında* "İran məsələsi" ilə məşğul olan müxtəlif komitə və alt komitələrin, Tədqiqat Xidmətinin, Nümayəndələr Palatasının Kəşfiyyat Siyasəti üzrə alt komitə üzvlərinin hesabatlarına xüsusi diqqət yetirilmişdir[15]. İctimaiyyətə açıq olan bu sənəd ABŞ-a İrandan gələn təhdid növlərinin qiymətləndirilməsini təmin edib. Müəlliflər sənəddə İranın fəaliyyətilə bağlı kəşfiyyat məlumatlarının əldə edilməsində ABŞ-ı maraqlandıran sahələrin başa düşül-

---

[14]Iran Counter-Proliferation Act of 2007 (H.R. 1400), 110th Congress, September 25, 2007; URL:www.senate.gov;URL:www.house.gov

[15] Nuclear Nonproliferation Issues, CRS Issue Brief for Congress, Updated January 2, 2002; Iran: Current Developments and U.S. Policy, CRS Issue Brief for Congress, Updated January 3, 2002; Iran: U.S. Concerns and Policy Responses. 18 May, 2012

məsinə dair boşluqları müəyyən edə bilməmişlər.

*ABŞ Konqresinin dinləmələri*. Konqresinin Nümayəndələr Palatasının və Senatının müxtəlif komitə və alt komitələrində keçirilən dinləmələr hökumətin qanunvericilik qolunda mühüm yer tutur. Parlamentinin beynəlxalq məsələlər komitələri tədqiq olunan problemin bu və ya digər aspekti üzrə müzakirələri izləyə bildiyindən dinləmələrlə bağlı hesabatları önəmlidir. Burada icra strukturlarının rəsmi nümayəndələri mütəmadi olaraq parlamentin müvafiq komitələrində fəaliyyətləri və "İran məələsi" ilə bağlı hesabatlar verirlər. Dinləmələrdə MKİ-də, Ağ Evdə tədqiq olunan problem üzrə praktik təcrübəyə malik fərqli tədqiqat mərkəzləri və institutlarının nüfuzlu ABŞ ekspertlərinin[16] rəyləri məmurların mövqeyi ilə üst-üstə düşür.

*ABŞ Konqresinin üzvlərindən məktublar, mesajlar*. Mənbələrin bu qrupu ABŞ Konqresinin ayrı-ayrı üzvlərinin tədqiq olunan məsələ ilə bağlı şəxsi nöqteyi-nəzərini öyrənməyə imkan verir. Bu, bir sıra konqresmenlərin prezident C. Buşa "İran problemi"nə həsr olunmuş məktubu ilə təmsil olunur[17].

*Beynəlxalq təşkilatların materialları.* Beynəlxalq təşkilatların və bölmələrinin rəsmi sənədləri və dövlətlərarası sazişlər, BAEA Rəhbərlər Şurasının qətnamələri, BAEA baş direktorunun hesabatları, BMT Təhlükəsizlik Şurasının qətnamələrində araşdırılan mövzunun hüquqi və texniki aspektlərini öyrənməyə və qlobal tendensiyaların ayrı-ayrı beynəlxalq proseslərə təsirini qiymətləndirməyə imkan verir. BAEA baş direktorunu rəsmi hesabatları İranın nüvə proqramının gedişatı və İran rəhbərliyinin bu sahədə gördüyü işlər və NPR ilə əlaqədar təminat sazişinin icrasına həsr olunub[18]. Onlar BMT TŞ-nın da-imi üzvləri, o cümlədən İİR-na qarşı müxtəlif təsir tədbirlərinin tətbiqi ilə bağlı qərar qəbul edən ABŞ üçün mühüm yazılı mənbələrdir. Bu tip sənədlərin hazırlanmasında İranın nüvə böhranının inki-şafı və hər mərhələdə tədqiq olunan problemlə bağlı ABŞ-ın mövqeyini müəyyən etmək üçün

---

[16] Safeguarding the Atom: Nuclear Energy and Nonproliferation Challenges: Hearing before the Committee on Foreign Relations, United States Senate, 110th Congress, 1st session, July 31,20076

[17] Senators Say White House Must Seek Congressional Approval for Offensive Military Action against Iran, November I, 2007

[18] Осуществление соглашения о гарантиях в связи с ДНЯО в Исламской Республике Иран; GOV/2023/39: Verification and monitoring in the Islamic Republic of Iran in light of United Nations Security Council resolution 2231 (2015)

lazım idi. ABŞ BAEA rəhbərinin Agentlik tərəfindən İranın məxfi nüvə proqramı həyata keçirməsinə dair aydın əlamət aşkar etmədiyini qeyd edən hesabat-larına şübhə ilə yanaşıb.

BMT orqanlarının materialları dissertasiyada BMT TŞ-ın 1696, 1737, 1747 və 1803 qətnamələri və Təşkilatın Nizamnaməsi ilə təmsil olunurlar. "İran məsələsi" BAEA çərçivəsində həll edilmədikdən sonra məsələyə baxılması BMT TŞ-na verilib. 1696 saylı qətnamə ehtiyat xarakterli idi və İrana nüvə sahəsində bütün fəaliyyətləri, ilk növbədə uranın zənginləşdirilməsini dayandırmağı tövsiyə etdi. İranın bu qətnamənin tələblərini yerinə yetirməkdən imtinasından sonra sanksiyaların tətbiqini nəzərdə tutan üç sənəd qəbul edilib. Qətnamələrin özəlliyi sanksiya kimi hərbi gücdən istifadəni nəzərdə tutmur və Buşehrdə atom elektrik stansiyasının tikintisinə toxunulmamasında idi.

*Beynəlxalq, hökumətlərarası müqavilələr, sazişlər, bəyannamələr.* Bu mənbələr qrupuna NPR Müqaviləsi, NPR-ə Qarşı Mübarizə Konsepsiyası, ABŞ-İran Nüvə Enerjisi Sazişi, İranın Nüvə Silahının Yayılmasının Qarşısının Alınması Aktı və s. daxildir.

*Prezidentlərin müsahibə, çıxış və hesabatları*, Senatın Daxili Təhlükəsizlik və Hökumət İşləri Komitəsinin Sədrinin müxtəlif illər-də hesabatları və təqdim edilən digər hesabat və sənədlər, Ağ evin sənədləri və digər analitik, statistik sənədlər və hesabatlar irəli sürülən tezislırin faktiki və rəqəmsal əsaslandırılmasını təmin edib.

*Rəsmi şəxslərin bəyanat, çıxış və müsahibələri* özündə əks etdirən media materialları hansısa qiymətləndirmələr barədə nəticə çıxarmağa imkan verdiyindən təhlil zamanı nəzərə alınıb.·

*Tədqiqatın metodoloji əsası kimi ümumi elmi və siyasi elmin prinsip və metodlarından* istifadə edilib. Dissertasiya işində problem üzrə məlumatların sistemləşdirilməsi və ümumi təhlilini təmin edən *müqayisəli təhlil metodu* nüvə proqramı kontekstində ABŞ-ın İrana qarşı siyasətinin konseptual çərçivəsini öyrənmək və müqayisə etməkdə, ABŞ Döv lət Departamenti, ABŞ Konqresi, ABŞ MKİ, İran XİN, Ağ Ev və Tehran, hər iki ölkənin MN, hər iki ölkənin BMT yanında Nümayəndəlikləri, habelə BMT TŞ və BAEA-nın qətnamələrinin və s. Qurumların çeşidli sənədlərini ətraflı öyrənməyə və müqayisə etməyə imkan verib. Tədqiqatda problem-xronoloji metoddan da istifadə ayrı-ayrı problemləri tədqiqat predmetindən təcrid etməklə materialı dissertasiyanın bölmələri arasında bölüşdürməyə və tədqiq

olunan mövzunun tam mənzərəsini təqdim etməyə imkan verib. Üsuldan istifadə edərək 4 müxtəlif dövrdə prezident və administrasiyaların İranın nüvə proqramı ilə bağlı siyasətləri təhlilə cəlb edilib.

Dissertasiyada *tarixi-genetik* metod Amerika və İran rəhbərliyinin İranın nüvə proqramının mahiyyəti və onun dinc məqsədlə istifadəni və ya milli təhlükəsizliyi təhdid dərəcəsi ilə bağlı qiymətləndirmələrindəki dəyişiklikləri izləməyə imkan verib və İranın nüvə böhranı zamanı ABŞ-ın "İranın nüvə proqramı" ilə bağlı mövqeyini və hər iki dövlətin geosiyasi ambisiyalarını öyrənmək üçün faydalı olub. Bu məqsədə çatmaq üçün əsərin müəllifi *təhlil və sintez* kimi ümumi elmi metodlardan istifadə edilmişdir ki, bu da tədqiqat predmeti haqqında hərtərəfli anlayış əldə etməyə imkan verib. Tədqiqatda eləcə də mövcud faktiki materiallar əsasında ümumi qanunauyğunluqları müəyyən etməyə və tədqiq olunan mövzunun ayrı-ayrı məsələlərinə ümumi nəticələr çıxarmağa imkan verən *induksiya və deduksiya* üsulundan istifadə edilib.

Tədqiqatın elmi-praktik əhəmiyyəti praktik tövsiyələrdən, nəticələrdən analitik mərkəzlərin elmi-praktik fəaliyyətində, elmi-tədqiqat işlərində istifadə oluna bilməsindən ibarətdir. Tədqiqat materiallarından beynəlxalq münasibərlər, siyasət nəzəriyyəsi, siyasi təhlil, regionşünaslığa giriş, beynəlxalq münasibətlərin proqnozlaşdırılması və b. fənlər üzrə tədris proqramlarının hazırlanması və tədris olunmasında istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Bakı Avrasiya Universiteti.

**Aprobasiya**. Dissertasiya tədqiqatının əsas nəzəri müddəaları və praktik nəticələri yerli və beynəlxalq indeksli jurnal və konfrans materiallarında nəşr edilmiş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Tədqiqatı işi giriş, dörd fəsil, on paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Giriş–30247, I Fəsil–71285, II Fəsil–100206, III Fəsil–101163, Nəticə–11054, ümumi həcm–283790 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi təhlil edilir, tədqiqatın ob- yekti, predmeti, məqsəd və vəzifələri haqqında məlumat verilir, nəzəri- metodoloji əsasları, elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar, işin nəzəri və praktiki əhəmiyyəti göstərilir.

**"İran İslam Respublikasının nüvə proqramının inkişafına qarşı ABŞ-ın xarici siyasətinin təkamülü"** adlı birinci fəsil iki yarımfəsil və 2 alt yarmfəsildən ibarətdir. "İranın nüvə siyasəti ilə bağlı ABŞ-ın geosiyasi yanaşması və Fars körfəzində geosiyasi hədəfləri" adlı birinci yarımfəsildə göstərilir ki, XXI əsrin əvvəllərində ABŞ-ın xarici siyasət doktrinaları və nüvə silahının yayılmaması konsepsiyalarının təhlili onun İİR nüvə proqramına dair yürütdüyü siyasətin geosiyasi qiymətləndirilməsinə və inkişaf dinamikasını müəyyənləşdirməyə imkan verir. Problemi obyektiv dəyərləndirmək üçün ilk əvvəl İranın nüvə proqramı məsələsinə tarixi ekskurs və XXI əsrdə ABŞ-ın geosiyasi kodlarının dəyişdirilməsi, müxtəlif dövrlərdə İran və ABŞ arasında nüvə texnologiyalarının mübadiləsi və nüvə təhlükəsizliyi sahəsində əməkdaşlığa dair ikitərəfli razılaşmalar və imzalanan Nüvə Enerjisi Sazişi araşdırılır. NPR-in ABŞ xarici siyasətinin tərkib hissəsinə çevrilməsi, ata C.Buş və Klintonun administrasiyası dövründə ABŞ-ın nüvə silahının yayılmamasına dair qəbul edilən sənədlər, birtərəfli qaydada İrana qarşı ticarət və iqtisadi sanksiyaların tətbiqi yeni Nüvə İcmalında «şər dövlətləri»in elanı və s. təhlil edilir. Göstərilir ki, regionçuluq perspektivi Buşun prezidentliyi dövründə önəm qazanıb və ABŞ-da xarici siyasətinin bəzi geosiyasi aspektləri qlobalist nöqteyi-nəzərdən regionalist müstəvidə dəyişdirilib, ABŞ-ın geosiyasi kodu müəyyən vaxtlarda konkret YŞ və MA kimi konkret regionlara üzərində cəmləşib.

ABŞ və onun tərəfdaşları arasında geosiyasi ziddiyyətlər İranda M.Hatəminin hakimiyyətə gəlməsi və onun 2001-ci ildə "sivilizasiyalararası dialoq" ideyasını irəli sürməsi ilə daha da dərinləşir, onun ABŞ- a başsağlığı göndərməsi və terrorizmlə mübarizənin beynəlxalq bir öhdəlik kimi qəbul edilməsini vurğulaması vəziyyəti yumşaltmır. "Qlobal miqyasda terrorçulara" qarşı müharibə mənasında "terrorizmlə müharibə" ABŞ-ın geosiyasi xətti kimi təyin edilir və o bununla o, Fars körfəzi və s. kimi böyük enerji ehtiyatlarına malik regionlarda tətbiq

etdiyi təcrübələrə, müdaxilələrə özünə haqq qazandırır.

11 sentyabrdan sonra ABŞ-ın MA regionunda fəal iştirakı, ABŞ-ın anti-İran strategiyası və həmin dövr MA strategiyasının uğursuzluğunun təhlili göstərir ki, geosiyasi kodlar ABŞ liderlərinin soyuq müharibə sonrası ümumi baxışlarının YŞ və MA kimi konkret regionlar üzərində cəmləşdiyini göstərir. ABŞ-ın İranın iştirakı ilə həyata keçirdiyi layihələrə qarşı mübarizə siyasətindən narazı olan MA dövlətlərinin İrana münasibətində tədricən baş verən müsbət dəyişikliklər Tehranın MA ilə bağlı ehtiyatlı və çevik taktikası və İran-Amerika münasibətlərinin normallaşması ümidləri ilə bağlı idi. Uğursuzluq və müvəqqəti dalğalanmalara baxmayaraq, ABŞ-in MA-dakı uzunmüddətli strategiyası 2010-cu illərin sonunda gerçəkləşmə alətləri transformasiyaya məruz qalır. Vəziyyəti dəyərləndirən İran ABŞ və onun müttəfiqləri ilə maraqların toqquşmasının qarşısını almaq üçün həm ehtiyatlı xarici siyasət yürüdür həm də geosiyasi imkanla-rından optimal istifadə edərək nəticədə geosiyasi mühasirədən çıxa bilir.

**“Corc Buş dövründə ABŞ-ın İranın nüvə proqramı ilə bağlı siyasəti”** yarımfəslinin **“ABŞ-ın İranın nüvə proqramı ilə bağlı mühafizəkar əsaslı “çəkindirmə” siyasəti. İrana təzyiq üsullarının sərhədlərinin müəyyənləşməsi (2002 - 2005-ci ilin əvvəlləri)”**adlı alt yarımfəsildə ABŞ-ın İranın nüvə proqramı ilə bağlı “çəkindirmə” siyasəti, 2002-ci ildən 2005-ci ilin əvvəllərinədək olan dövrdə İrana təzyiq alətlərinin sərhədlərinin müəyyənləşməsi və 2005-2008-ci illəri əhatə edən İranın nüvə proqramının inkişafı kontekstində Buş administrasiyasının İrana qarşı strateji xətti kimi üç əsas mərhələ təhlil edilir. Göstərilir ki, C.Buşun prezidentliyə başlaması ilə ABŞ-ın mühafizəkar proqramı güc sistemlərində struktur dəyişikliyinin liberal proqramı ilə üst-üstə düşür. Sərt hərbi-siyasi hökmranlığını müdafiə edən neo-mühafizəkar siyasətçilərin rəhbərliyi altında təqdim olunan “Yeni Amerika əsri” layihəsi xarici siyasət üçün bir hökumət proqramına çevrildi, nüvə silahının istifadə oluna biləcəyi hədəf və vəziyyətlərin siyahısı ilə müdafiə planlaşdırmasının təhlilini özündə cəmləşdirdi.

Buş administrasiyası, MKİ direktoru C.Tenetin hesabatı, ABŞ xarici siyasətinin İran istiqamətinə nəzarət edən MTŞ-nın rəhbəri K. Rays, MN D.Ramsfeld, vitse-prezident R.Çeyninin İranla bağlı yanaşmaları təhlil edilir, göstərilir ki, Klintonun dövründə həyata keçirilən “çevik hegemoniya” konsepsiyası C.Buş dövründə “sərt

hegemonluq" anlayışına, terrorizmlə mübarizə isə "Amerikanın xarici siyasətinin yeni təşkilati prinsipi"nə, ABŞ dəyərlərinin başqa ölkələrə və xalqlara təlqin edilməsi üçün əlverişli alətə çevrildi. Buşun güc tətbiqində təmkinli olması ilk növbədə buna uyğun şəraitin olmaması, Əfqanıstan və İraqdakı çətinliklərlə bağlı idi. O, həddindən artıq liberalizmdə ittiham edilməkdən yayına bildi, bununla da hərbçilərin sıralarında narazılığın artmasının qarşısını ala bildi. İrana qarşı hərbi əməliyyatın inkişafına sanksiya verməklə prezident Buş zahirən də olsa, administrasiyaya onlar tərəfdən təzyiqi azaltmalı olan neokonservatorların xəttini izlədi.

**"İranın nüvə proqramının inkişafı kontekstində Buş administrasiyasının İrana qarşı strateji xətti"** adlı alt yarımfəsildə göstərilir ki, 2005-ci ilin əvvəlində Ağ Ev yaxın gələcəkdə teokratik rejimin hərbi yolla devrilməsinin qeyri-mümkünlüyünü anlayır və YŞ-in "demokratikləşməsi"nə Qərb müttəfiqlərini cəlb etməyə, anti-İran koalyasını yaratmaq üçün müttəfiqlərini birləşdirməyə çalışır və bütün diqqətini İranın nüvə problemi" məsələsinə yönəldir. İranın BAEA-nın nüvə obyektlərinə çıxışını təmin etmək üçün beynəlxalq öhdəliklərlə razılaşmadan imtinası, prezidentin "İsraili yer üzündən silməyə" çağıran aqressiv bəyanatları prosesləri gərginləşdirir. 2005-ci ilin əvvəlində ortaya çıxan hərbi ssenari "ehtiyat" kateqoriyasına keçirilir: İranın nüvə proqramı məsələsi diplomatik yollarla həll edilməlidir və həmin vaxt hərbi planlar nəzərdən keçirilmir. Bu variantların mövcudluğu isə ona görə lazım idi ki, güc tətbiq etmək cəhdləri bu cür istifadəyə haqq qazandıran və güc ssenarisinin həyata keçirilməsi mexanizmlərini müəyyən edən mövcud faktiki sənədlərlə dəstəklənərsə, psixoloji və siyasi-diplomatik təzyiq daha effektiv ola bilərdi. Administrasiyaya görə prezidentin birtərəfli siyasəti milli ittifaqları darmadağın edib və nəticədə dünya sistemini daha xaotik edib. Dövlət Departamenti rəhbəri administrasiyaya İranla münasibətlərdə ABŞ-in nüfuzlu "beyin mərkəzi"nin hazırladığı:Tehranın nüvə proqramından imtinası və hərtərəfli təftiş rejimini qəbul etməsi, radikal islamçı qruplara dəstəyin dayandırılması, Tehranın sərt davranış xəttini davam etdirəcəyi təqdirdə güc tətbiqini nəzərdə tutan İran strategiyasının gerçəkləşməsini təklif edir. İran tərəfi isə özlərinin irəli sürülən təkliflərinin qəbul edilmədikdə uranın zənginləşdirilməsi üzrə fəaliyyətlərini bərpa edəcəyni bildirir. İran danışıqlarda öhdəlik götürməkdən yayınır, nüvə

proqramı ilə bağlı mü zakirələri ilkin şərt olmadan davam etdirməyə razılaşır və bununla da bərabərhüquqlu tərəfdaş statusu əldə etmək istəyini qəti şəkildə nümayiş etdirir. Moskva danışıqlarında Rusiyada uranın zənginləşdirilməsi üzrə birgə müəssisənin yaradılması razılığı ABŞ-ın İranın nüvə sənədinin TŞ-na verilməsində israrlı olması ilə uğursuz olur. İran rejimi siyasətini dəyişmək, si-yasi sistemini açmaq və xalqına azadlıq vermək üçün strateji qərar verərsə, nüvə problemi həll oluna bilər. Bu aspektdə ABŞ-ın MTS elan edilir. Bununla da, ABŞ-ın İrana qarşı iddiaların siyasi xarakter daşıması və "molla" rejiminə təzyiq göstərmək üçün səbəb olması təsdiqini tapır.

İran rəhbərliyi dinc nüvə enerjisini inkişaf etdirəcəyini qətiyyətlə müdafiə edir, bu qərarı "şərtlərin dəyişməsi" ilə izah edir. ABŞ İranı qəbul edilən strateji qərara yenidən baxmağa məcbur etmək üçün təzyiqləri artırır. Rejimin sabitliyini dərk edən Vaşinqton 2006-cı ildə İran müxalifətinə dəstək üçün 75 mln. $ ayırır. 2006-2007-ci illərdə BMT TŞ İrana qarşı sanksiya tətbiq edən 1737 və 1747 saylı qətnamələri qəbul edir. A.Xamenei 2007-ci ilin mart ayının ortalarında İrana qarşı tətbiq edilən növbəti "qeyri-qanuni" sanksiyalara cavab olaraq "qeyri-qanuni" nüvə işini davam etdirmək niyyətində olduğunu elan edir.

İranla hərbi güc dili ilə danışmağın faydasızlığını görən administrasiya yumşaldıcı addımlara keçid edir. Rejimin dəyişdirilməsi xəttini götürən administrasiya İranın daxili siyasi sistemini yaxşı təhlil etmədiyindən atılan addımlar müsbət nəticə vermir. İran da öz sərt ritorikasını davam etdirib mövcud rejimin sabitliyini qorumaq üçün müxtəlif addımlar atır. ABŞ-ın şərtlərilə razılaşmayan İran əsl mahiyyəti dərk edir, preventiv addımlara üstünlük verib ABŞ-ın məqsədlərinin həyata keçirilməsinə mane olur. Bunların nəticəsi olaraq C.Buşun prezidentlik müddətinin sonuna kimi iki dövlətin şah dövründəki siyasətini həyata keçirməsi dalana söykənir. C. Buşun hakimiyyət döv ründə İrana qarşı həyata keçirilən siyasətin xarakterini göstərmiş olsaq, bunu "yumşaq güc>sərt güc> yumşaq +sərt güc" kimi ifadə edilə bilər.

**"ABŞ-İran münasibətlərində davamlılıq və dəyişiklik: Barak Obamadan Co Baydenə qədər İranın nüvə sazişinin"** adlanan ikinci fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə "**Barak Obama dövründə Vaşinqtonun İranın nüvə enerjisinin inkişafı ilə bağlı Tehran siyasətində dəyişikliklər"** təhlil edilir**.** Göstərilir ki, Barak Obama prezident seçilməsilə Vaşinqtonun İranla yeni kommunikasiya

xətləri yaranır. O, ilk gündən İran üçün yumşaq güc strategiyasını ən yaxşı siyasət kimi qəbul edir, 2009-cu il Novruz mesajında İrana müraciətində "İran İslam Respublikası" ifadəsini işlədir. Obama administrasiyası İranla nüvə məsələsi üzrə danışıqlar masasına oturmaq üçün ilkin şərtlər qoymayacağını açıqlayır, danışıqlar prosesinə başlamaq üçün "Hot Dog Diplomatiyası" strategiyanı təqlidi uğurlu olur. 2009-cu ildə bağlanan Cenevrə Sazişi İrana nüvə proqramının qanuni olduğunu nümayiş etdirmək üçün qızıl fürsət təqdim edir, Obama İrana nüvə enerjisi ixracını qadağan edən qətnamələrə düzəlişlər tələb etmək üçün BMT TŞ-na getsə də, İran sövdələşmənin şərtlərindən imtina edir.

2010-cu il Nüvə icmalında ABŞ-ın nüvə siyasətinin məqsədləri təhlil edilir, icmalda nüvə silahının rolunun azaldılması vəzifəsi yeni texnologiyalarla təmin edilən qeyri-nüvə silahlarının imkanlarının obyektiv artım tendensiyası kimi qiymətləndirilir və paralel olaraq "*ağırlıq mərkəzinin Asiyaya köçürülməsi*" haqqında strateji qərar qəbul edilir. Yeni kurs 2011-ci ilin sonunda B. Obama və H. Klinton tərəfindən açıq elan edilir. "*Ağırlıq mərkəzinin yerdəyişməsi*"nin siyasi-hərbi hissəsi yeni sənəddə – *Strateji Müdafiə Direktivlərində* formalaşdırılır. İcmalda silahların yerləşdirilməsi ərazilərinin potensial hədəflərə daha yaxın olması, yəni konsepsiyanın qlobal səviyyə-dən regional səviyyəyə keçidinin baş verdiyi əks olunur və bu "effektiv regional təhlükəsizlik arxitekturasının mühüm elementi" kimi qiymətləndirilir. Diplomatik səylərdən 2009-cu ilin sonuna qədər lazımı nəticə əldə olunmadığından mövcud vəziyyət Obamanı İrana qarşı siyasi təzyiqlərin və sanksiyaların artırılması strategiyalarına qayıtmağa vadar edir, 2010-cu ildə 1929 saylı qətnamə qəbul edilir. Ağ ev Rusiya və Çinin bu qətnaməyə dəstəyini almaq üçün güzəştlər etsə də, onlar daha ağır sanksiyaların qəbuluna qarşı çıxırlar.

2011-ci il noyabrda BAEA-nın Vyanada İranın nüvə proqramının ilk dəfə *açıq şəkildə nüvə silahı ilə əlaqələndirilən* hesabatı Qərbdə və İsraildə müzakirələri alovlandırır. ABŞ-ın iqisadi sanksiyalarına məruz qalan İranda xarici siyasətini dəyişməməsi sanksiyaların effektivliyinə şübhələr doğurur, İran hər ötən il ixrac və idxal göstəricilərini artırmağa nail olur, sanksiyaları dolayı yolla təsirsiz hala gətirən üsullar tətbiq edilir. İki ölkə arasındakı qarşıdurma 2013-cü ilədək prezident Həsən Ruhaninin seçilməsinə qədər davam edir. 2013-cü ilin mart ayında ABŞ-ın Omanda İran rəsmiləri ilə İranın nüvə inkişafı haqqında böyük

razılaşma əldə etmək imkanları ilə bağlı bir sıra ikitərəfli danışıqlara başladığı bildirilir. 2013-cü ildə Obama və Ruhani arasında telefon danışığı baş tutur və tərəflər "quid pro quos" strategiyasına əsaslanan bir neçə siyasəti bölüşür. Obama sərt gücün hərbi marşrutunu yumşaq gücə, "cəzalandırma" və "dayandırma"ya əsaslanan daha məcburedici diplomatiyaya doğru yenidən konseptuallaşdırır. Nəticədə Birgə Hərtərəfli Fəaliyyət Planı İranın nüvə proqramı ilə bağlı hərtərəfli ortaq fəaliyyət planına çatmaq üçün Lozanna şəhərində ABŞ, İran Fransa, Almaniya, Böyük Britaniya, Aİ, Çin və Rusiya diplomatları tərəfindən 2 aprel 2015-ci ildə imzalanır. Öhdəliklərini qəti şəkildə təsdiqləyən bu razılaşma nəticəsində İran, BMT TŞ, AB və ABŞ-ın İrana qarşı daha əvvəl tətbiq edilən iqtisadi və maliyyə sanksiyalarının yumşaldılmasına nail olur, ən ağır sanksiyalar götürülür, əsas valyuta mənbəyi olan nefti ixracı hüququnu əldə edir. Saziş Obamanın böhranın həllinə istiqamətlənmiş ABŞ xarici siyasətinin əsas diplomatik uğurlarından biri olur. Belılikl, Obama administrasiyası İrana qarşı xarici siyasətində demokratiyanın təşviqini arxa planda görür, daha çox nüvə fəaliyyətlərinin dayandırılması, təhlükəsizlik və iqtisadi maraqlara üstünlük verir. Müəyyən dərəcədə İranı uğurla danışıqlara cəlb etsə də, rejimin təsəvvürünü dəyişdirə bilmir. Administrasiyasının siyasət gücü daha çox sanksiyalarla məcburedici diplomatiya oldu. Tətbiq edilən sanksiyalar İran iqtisadiyyatını müəyyən dərəcədə iflic etsə də, İran Obamanın prezidentliyi dövründə nüvə proqramından və son siyasi məqsədlərinə çatmaq, regionda qərar qəbulunda söz sahibi olmaqda imperativ regional gücə çevrilməkdən vaz keçmədi. Sanksiyaların altında davam edən "çəkindirmə" siyasəti İranı özünümüdafiə strategiyasında, digər ölkələrin daxili işlərinə nüfuz etməkdə onu regionun qalan hissəsindən kənarlaşdırmadı, İran regionun gələcəyi ilə bağlı qərarlarını geniş şəkildə səlahiyyətləndirməkdə masadan kənarda qalmamaqda israrlı oldu.

**İkinci yarımfəsildə Donald Tramp və CoBayden administrasiyası dövründə ABŞ-ın İranın nüvə proqramı ilə bağlı siyasəti** təhlil edilir. Göstərilir ki, D. Tramp və komandası İrana qarşı mövqeyində qətiyyətli olub, İranın nüvə təhlükəsinə qarşı mübarizə strategiyası İranın sabitliyi pozan təsirini neytrallaşdırmaq və İranın terrora dəstəyi məhdudlaşdırmağa diqqət yetirib. Tramp razılaşmadan sonra sanksiyaların ləğvilə İranın hərbi büdcəsini 40% artdırdığını, YŞ-də və onun hüdudlarından kənarda xaos yaratmaq üçün istifadə edildiyini

bildirir. Sazişə 150 mld.$ vəsait və 1,8 mld.$ nağd pul xərclənsə də, Tramp onu ABŞ-ın imzaladığı ən pis və birtərəfli əməliyyatlardan biri kimi dəyərləndirir, mayın 8-də ABŞ-ın Sazişdə iştirakını dayandırır.

P5+1 üzvləri ABŞ-ın iştirakı olmadan razılaşmanı saxlamağa çalı- şırlar. M. Pompeo BMT TŞ-ın prezidentinə məktub göndərib, onu "snapback"in başlaması barədə məlumatlandırsa da, çağırış yerinə yetirilmir. Tehran hadisəni Vaşinqtonun "tarixi məğlubiyyəti" kimi qiymətləndirir, bu mərhələdə istədiyinə nail olur. ABŞ isə İrana sanksiyaların tətbiqinə başlayır və bu İranın nüvə proqramı çərçivə-sində problemlərin həllində effektli olmur. Dərin iqtisadi böhrana cavab olaraq, bir il sonra İran müqavilənin şərtlərini pozur. Müttəfiqlər qərardan razı qalmırlar, Çin Sazişin bütövlüyünün təmini üçün Tehranla əməkdaşlığı davam etdirəcəyini bildirir.

Yarımfəsildə ABŞ-ı BHFP-ı müqaviləsindən geri çəkilməyə məcbur edən əsas məqamlar təhlil edilir. Göstərilir ki, Trampa görə BHFP ra- zılaşması YŞ-də İran təhlükəsinə qarşı adekvat deyildi. O, müqavilənin 8-15 illik məhdud müddətə malik olmasına tənqid edir, müfəttişlərə İranın hərbi obyektlərinə tam giriş imkanın yaradılmasını, Sazişin İana raket arsenalını toplamaq və sınaqdan keçirməyi qadağan etməsini və İran YŞ-dəki "zərərli fəaliyyətlərini" dayandırmasını tələb edir. İran isə davamlı mövqe göstərməsi üçün ABŞ-dan bu ölkənin nüvə sazişindən çıxmasının yolverilməzliyi haqqında Senat tərəfindən qanun qəbulunu tələb edir və təkid edir ki, ABŞ əvvəlcə Trampın tətbiq etdiyi bütün sanksiyaları ləğv etməli və yalnız bundan sonra İranla sövdələşməyə qayıdılacaq. 2020-ci ilin aprelində Avstriyanın paytaxtında Sazişin şərt- lərinə uyğunluğun təmin edilməsi üçün danışıqlar başladı. Lakin Qərblə münasibətlərində sərt xətt tərəfdarı olan İ.Rəsinin İran prezidenti seçilməsindən sonra proses dayanır.

2021-ci ildə Prezidentliyə başlayan *C.Bayden* bir çox daxili problemlərlə üzləşir, İran siyasəti o qədər də prioritet olmur. Bu arada ABŞ prezidentinin xarici siyasət komandası BHFP danışıqlarının uzadılması və nüvə sazişinə yenidən qoşulmaq üçün ilkin şərtlərin əlavə edilməsi ilə bağlı müxtəlif variantları araşdırır. Administrasiyaya görə nüvə danışıqlarının bərpası əlavə edilmiş qeyri-nüvə məsələlərinin həlli ilə yanaşı nəzərdə tutulur. O, İranla "nüvə sazişi"nin saxlanmasının tərəfdarı olduğunu göstərir. Seçkidən sonra administrasiya hər hansı real tədbir görmür, xarici siyasətdəki qeyri-müəyyənlik öz hökmranlığını

davam etdirir.

Göstərilir ki, Baydenin İrana qarşı xarici siyasətində İranla münasibətlərin tənzimlənməsində çoxtərəfli əlaqələrin və institusionalizmin vurğulanması, liberal beynəlmiləlçiliyə diqqətin yetirilməsi, birgə oyunlara və "ağıllı güc"dən istifadəyə vurğu edilməsi kimi perspektivlər nəzərdən keçirilir. 2020-ci ilin fevralında müttəfiqlər İranla münaqişənin həlli üçün fürsət pəncərəsinin bağlandığı barədə xəbərdarlıq edir və İranın nüvə proqramını "ardıcıl olaraq genişləndirməkdə" davam etdiyini bildirir. Administrasiyasının yüksək vəzifəli şəxslərinin bəyanatlarının nəzərdən keçirilməsi göstərir ki, ABŞ orijinal BHFP-ya qayıtmaqda ciddi deyil, əksinə, yeni razılaşma əldə etməyə və danışıqları aparmağa diqqət yetirir. Sazişin bərpasında kompromisin rəmzi olaraq hər iki tərəf ilkin mərhələdə "addım-addım" öz yanaşmalarını ortaya qoysa da, 2021-ci ildə A.Xamenei "addım-addım yanaşmanı" istisna edir, mərhələli qayıdış olmayacağını, İranın yalnız ABŞ-ın bütün nüvə silahlarını tamamilə ləğvindən sonra yenidən əməl edəcəyini elan edir. Trampın prezidentliyi dövründə olduğu kimi Bayden dönəmində də İran "maksimum təzyiq" kampaniyasına "müqavimət"lə cavab verir və uğur qazana bilir. Təcrübə göstərir ki, ABŞ İrana qarşı siyasətində daxili və beynəlxalq koalisiyaların rolu da nəzərə alınmalıdır. İranla nüvələşmə problemi həll olunmasa, YŞ-də nüvə silahının yayılması qaçılmaz olar.

**"İranın nüvə proqramının geosiyasi aspektləri" adlı** III fəslin I yarımfəslində **İran rəsmilərinin İranın nüvə proqramı ilə bağlı fəaliyyəti** araşdırılır, İran üçün nüvə enerjisinin əhəmiyyəti təhlil edilir. Göstərilir ki, İranın siyasi maraqları, "güc balansı" və "çəkindirmə" siyasətinin effektiv şəkildə saxlanması, dəyişən regional və regiondan kənar təhlükələri aradan qaldırılmasnda nüvə enerjisindən müdafiə məqsədlərində istifadə olunması əhəmiyyət kəsb edir. Xamenei nüvə biliyinə sahib olmağı İranın iqtisadi strateji məqsədi və iqtisadi tərəqqisinin əsas təminatı hesab edir, bu isə, nüvə enerjisi əldə etmək səylərini "qaçılmaz" edir. Yarımfəsildə İran liderlərinnin nüvə proqramına dəyişən perspektivlərdə yanaşmaları təhlil edilir. Göstərilir ki, Tehranın dəvətilə M.Əl-Baradeinin 2003-cü il fevralında Natanz qurğularına iki günlük səfərindən sonra "İranın nüvə proqramında müşahidə olunanların gözlənilməz olmadığını" vurğulanması ABŞ tərəfindən təzyiqlə qarşılanır və o, "İranın bəzi qaydaları yerinə yetirmə-

məsi" ilə bağlı İdarə Heyətinə hesabat təqdim etməyə vadar edilir. BAEA-nin İranda nüvə silahı proqramına dair sübut tapmamasına rəğmən *Hatəm*i Qərblə siyasi müstəvidə ortaq məx rəcə gələ bilmir. Bu kontekstdə xarici əlaqələrdə barışdırıcı və konstruktiv cəhdlərinə rəğmən nəticə əldə edə bilməməsi onu mühafizəkarların əsas tənqid hədəfinə çevirir. Qərb ölkələrini "sakitləşdirməyə" etdiyi güzəştlərə rəömən, qarşı tərəfin İranın Fars körfəzində güclü ölkə kimi nüvə enerjisi əldə etmək hüququnu və iqtisadi,texnoloji ehtiyaclarını tanımaqdan imtinası Hatəmini çətin vəziyyətdə qoyur. Qərblə danışıqların yarımçıq qalsa da Hatəmi dövründə nüvə diplomatiyasında Sədabad, Brüssel, Paris sazişləri imzalanmaqla İran texniki, praktiki və təhlükəsizlik siyasi aspektləri baxımından bir çox imkanlar əldə edə bilir və əvəzində o, Qərbin sərt siyasəti ilə qarşılaşır.

Prezidend *Əhmədinejad* hökuməti siyasi dünyaya nüvə silahından istifadəyə əsaslanan çox fərqli mövqedən daxil olur: İslam dininin kütləvi qırğın silahlarına qarşı olduğunu bəyan edir və İranın kütləvi qırğın silahı istehsal etmək niyyətində olmadığını söyləyir, İranın nüvə texnologiyası əldə etmək üçün "imtina etməmək hüququ" olması və İranın nüvə sirlərini digər müsəlman ölkələri ilə bölüşmək istəyini vurğulayır, digər dövlət və özəl şirkətləri İranın nüvə proqramına kömək etməyə dəvət edir. O, təşəbbüsü Avropadan ələ keçirməyə, onu hüquqi- siyasi müstəviyə salmağa çalışır, BMT TŞ-nın "Asiya qanadını" nüvə danışıqlarına daxil edilməsi, Qərbin İrana qarşı münasibətinə "meydan oxumaq" və "Şərq Cəbhəsi" yaratmaqla TŞ-da İrana qarşı mühüm sanksiyaların və hərbi müdaxilə qərarlarının qarşısının alınması əsasında danışıqlar traktının passiv vəziyyətdən İranın xeyrinə dəyişir.

H.Ruhaninin prezidentliyi dövründə İran və ABŞ liderləri arasındakı arasında dialoqun qadağan olunması qaydası ləğv olunur. Onun P5+1 ilə sıx əlaqə yaratmaqla şərtləri siyasi *istiqamətdən hüquqi istiqamətə* keçirir və bu istiqamətdən qurduğu siyasi anlayış danışıqlarda uğur qazanır.

Ali rəhbər Xamenei iqtisadi problemlərin beynəlxalq problemlərdən qaynaqlandığı fikrini rədd edir, iqtisadi sıxıntıda böhranın həlli yolunu İranın xarici amillərdən asılılığını azaltmağa yönəlmiş müqavimət iqtisadiyyatında olduğu mövqeyində sadiq qalır. ABŞ rəsmilərinə görə onun uğurlu siyasəti hansı yolu tutulmasına baxmayaraq, "seçim İrandadır", ABŞ və müttəfiqlər Tehranın etdiyi istənilən seçimə

hazır olmalıdırlar. Xamenei rejimin davam etməsi üçün “sığorta siyasəti” adlandırdığı nüvə və uzaqmənzilli raket proqramı ilə bağlı əhəmiyyətli güzəştləri, üzləşdiyi iqtisadi böhranın dərinləşməsi və xalq etirazının artmasını rejim üçün əsaslı risk kimi görür. Administrasiya hər dəfə İrana əlavə güzəştlərə nail olmaq istəyəndə sanksiyalar götürülsə belə, sanksiyaların gələcəkdə bərpa olunmayacağına dair İrana zəmanət vermir. Administrasiyanın gözlənilməzliyini dərk edən Tehran, regional davranışı dəyişdirmək və ya danışıqlar masasına qayıtmaq tələblərinə yol vermir.

Yarımfəsildə prezident İ. Rəisinin Vyana danışıqlarında irəli sürdüyü qaydalardakı xüsusi məqamlar, tələb və təkliflər təhlil edilir. 2022-ci ilin martında BHFP danışıqlarında yekun razılaşma zamanı Rəisi sazişi imzalamır. BHFP-nin Avropa təklifində yekun mətni uğursuz olur, Tehran və Qərb bir-birini razılaşmaya ciddi əməl etməməkdə ittiham edirlər. Noyabda isə Bayden BHFP-nı “ölü” adlandırır. 2023-cü ilin fevralında Peknə səfərində Si Cinpin Rəisini əmin edir ki, nüvə sazişi üzrə danışıqlarda İranı dəstəkləyəcək. Bu və Ömər Sultanının Tehrana gözlənilən səfəri BHFP danışıqlarını canlandırmaq səylərinin davam etdiyinin göstəricisi ola bilsə də, rəsmi BHFP danışıqları 2023-cü ilin martından etibarən bərpa edilmədiyinə görə bu səylərin potensialı hələ də bəlli deyil.

Təhlillər göstərir ki, İranın nüvə proqramı ölkə tarixində indiyə qədərki ən qabaqcıl proqramdır, İran nüvə silahı əldə etməyi hədəfləyir və tezliklə nüvə silahına malik ola bilər. 2024-cü ildə İ.Rəisi və onu müşayət edən digər yüksək rütbəli şəxslərin helikopter qəzasında ölməsi İranın nüvə siyasətinə dəyşiklik etmədi. Yeni seçilən prezident Məsud Pezeşkian İranın xarici siyasətində ABŞ-la münasibətlərin yumşaldılmasını ifadə etsə də, hələ ki, nüvə siyasətinin istiqamətini dəyişəcək hər hansı əhəmiyyətli mövqe ortaya qoymayıb.

Sonuncu yarımfəsildə **“Nüvə proqramı kontekstində İran geosi- yasətinin əsas istiqamətləri”** araşdırılır. Yarımfəsildə İranın geostrateji aktuallığını şərtləndirən coğrafi koordinatları və strateji mövqeyi təhlil olunur. Göstərilir ki, ABŞ Energetika Nazirliyi son hesabatında İranı dünyada ikinci ən böyük qaz ehtiyatlarına və üçüncü ən böyük neft ehtiyatlarına malik ölkə elan edib. İranın qaz ehtiyatları 3 trilyon kubmetr artmışdır, qlobal neft ehtiyatlarının 12%-nə və YŞ-in ümumi neft ehtiyatlarının 24%-nə sahibdir. 2021-ci ildə OPEC-də

beşinci ən böyük xam neft istehsalçısı olub. Odur ki, İranın qlobal güclər tərəfindən dərk edilməsi hazırkı beynəlxalq münasibətlərdə həyati əhəmiyyət kəsb edir.

Yarımfəsildə nüvə proqramı kontekstində İran geosiyasətinin əsas istiqamətləri, ABŞ, Aİ, İsrail, Çin, Rusiya və digər region dövlətlərinin regiondakı maraqları ilə kəsişməsi təhlil edilir.

Belə qənaətə gəlinir ki, Körfəzin geo-strateji mənzərəsini formalaşdıran rəqabətin struktur xarakterinə uyğun region diplomatiyası çətindir, statik deyil, dərin dəyişikliklər gedir, Qərb hökumətləri üçün həm yeni imkanlar, həm də yeni diplomatik və strateji prob lemlər yaradır.

Pekin üçün Tehran Vaşinqtonla böyük güc rəqabətini inkişaf etdirməkdə faydalı platformadır. Çinin BHFP-ya dəstəyi, getdikcə daha iddialı olan İranın nüvə hedcinqinə cavab olaraq İsrailin güclü hücum potensialı qarşısında beynəlxalq qorxunun göstəricisi kimi qəbul edilə bilər.

Nüvə enerjisinin inkişaf etdirilməsində İrana müttəfiq olan *Rusiyanın* İranın nüvə problemini dəstəkləməyə vadar edən səbəblər və müdafiə siyasətində Rusiyanın verdiyi töhfəyə baxmayaraq, Rusiya və İranın tam strateji əməkdaşlığa nail ola bilməməsində mövcud səbəblər araşdırılır. İsrailin hədəfi isə regionda İranın nüvə texnologiyası sahəsində istənilən fəaliyyəti dayandırmaqdır. ABŞ İsrailin YŞ-dəki mövqeyinin möhkəm dəstəkçisidir. İranın dəstəklədiyi etibarlı qüvvələrin Suriyadakı ABŞ bazalarına hücumundan sonra Bayden 2023-cü ilin mart ayında xalqını qorumaq üçün"“güclə hərəkət edəcəyini” ifadə edib.

Ümumilikdə nüvə proqramı kontekstində *İran geosiyasətinin əsas istiqamətləri* region və daha geniş beynəlxalq ictimaiyyət üçün *iqtisadi, siyasi və hərbi nəticələrin* kompleks birləşməsini əhatə edir. *İqtisadi baxımdan* ABŞ və müttəfiqləri İrana nüvə fəaliyyətlərini dayandırması və danışıqlara qayıtması üçün təzyiq göstərmək məqsədilə ona qarşı iqtisadi *sanksiyalar* tətbiq ediblər. *Siyasi baxımdan* nüvə proqramı regional sabitliyə də təsir edib.

İranın nüvə proqramının *geosiyasi nəticələri* geniş *beynəlxalq təhlükəsizlik məsələləri* ilə bağlıdır. İranın nüvə proqramı YŞ-də regional güc dina mikasına təsir edir, əldə etdiyi nüvə materiallarını nüvə silahına çevirmə mərhələsinin başlanğıcındadır. 2023-cü ilin fevralında İrandakı beynəlxalq atom monitorları nüvə silahı səviyyəsindən

(90%) aşağı səviyyədə 84% saflığa qədər zənginləşdirilmiş uranı aşkar etməsi, silah dərəcəli uranın son istehsalını başlamaq məqsədi daşıyan sınaq ola bilər.

*Nəticədə tədqiqata yekun vurulur*, nəzəri və praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülür. Belə qənaətə gəlinirr ki, 2001-ci ildən bu günə qədər Vaşinqtonun siyasi fəaliyyət istiqamətlərindən biri mövcud NPR-dən bir sıra ölkələrin əməkdaşlığına təzyiq və təşviq aləti və regionların daxili işlərinə müdaxilə üçün bəhanə kimi istifadə etməsi ABŞ-ın milli maraqları ilə bağlıdır. Terrorizmlə mübarizə "Amerikanın xarici siyasətinin yeni təşkilati prinsipi" və əslində Amerika dəyərlərinin başqa ölkələrə və xalqlara təlqin edilməsi üçün əlverişli vasitəyə çevrilib. ABŞ-ın İran siyasətində İİR-nın geosiyasi baxımdan əhəmiyyətinin əsaslı şəkildə dərk edilməsi, mövcud siyasi rejimin rədd edməsi və problemin mahiyyətinin nüvə proqramının özündə deyil, onun YŞ-də qüvvələr balansının dəyişdirilməsi və yenidən bölüşdürülməsinin açarı olması kimi istiqamətlərdə saxlanılıb. ABŞ rəhbərliyinin "təhlükə" gördüyü ruhani rejimin yürütdüyü siyasətə qarşı əsas şikayətləri qalsa da, onların keyfiyyət komponenti və prioriteti dəyişirdi: soyuq müharibə başa çatdıqdan sonra "təhlükələrin" əksəriyyəti əsasən siyasi məna qazandı və sonra nüvə proqramı ilə əlaqələndirilməyə başladı.

C. Buşun nüvə silahının yayılmasına qarşı mübarizə strategiyası B. Obama tərəfindən ABŞ üçün yeganə fövqəldövlət statusunun qorunub saxlanmasına yönəlir. Bu kontekstdə Vaşinqton ölkələri "etibarlı" (Hindistan, Pakistan) və "etibarsız"a (İran, Şimali Koreya) bölür və sonuncunun nüvə texnologiyalarını inkişaf etdirməsinə qadağa qoyur. Bu isə kollektiv şəkildə qeyri-nüvə ölkələri "güc çoxqütblülüyünü" formalaşdırmaq ideyasına doğru itələyir, yalnız ciddi hərbi potensialın möv-cudluğunun beynəlxalq arenada nüfuza zəmanət verə biləcəyi vəziyyətləri təlqin edir. Bu məntiqdən çıxış edərək, ABŞ-la dialoqda özünü qorunmuş hiss etmək üçün ancaq nüvə silahı yerinə yetirə biləcək çəkindirici silaha sahib olmaq lazımdır.

Trampın prezidentliyi zamanı İran "maksimum təzyiq" kampaniyasına "müqavimət"lə cavab verərək uğur qazanır. Trampı BHFP-ı müqaviləsindən çıxmağa məcbur edən məqamlar İrana nüvə silahını həyata keçirmək şansı verən: sazişin həyata keçirilməsi təftişində güclü mexanizmin tətbiq edilməməsi, beynəlxalq müfəttişlərə İranın hərbi ob-

yektlərinə tam giriş imkanın yaradılmaması, istənilən anda və yerdə yoxlamalara icazə tələbini həyata keçirməməsi, sazişin İranın onilliklər ərzində inkişaf etdirdiyi ballistik raket proqramına qarşı tələb qoymaması, 8-15 illik məhdud müddətə malik kimi boşluqların olmasındadır.

C. Bayden və administrasiyasının Konqresdəki bəyanatlarının təhlili Baydenin real məqsədlərini açıqlayır, onun Obamanın xarici siyasət və təhlükəsizlik uğurlarından uzaqlaşdığını göstərir.

İranın nüvə proqramı ətrafında artan münaqişə vəziyyəti nüvə silahının  BMT TŞ və bir sıra dövlətlərin birtərəfli qaydada İrana qarşı tətbiq etdiyi sanksiyaların səmərəsizliyi göstərdi ki, bu, qeyri-qanuni fəaliyyətdə şübhəli bilinən ölkəyə təsir etmək üçün adekvat beynəlxalq hüquqi metodların olmadığını nümayiş etdirir. Belə vəziyyət gələcək proliferativ dövlət lərə nümunə və fəaliyyət üçün bələdçi ola bilər.

Silahsızlaşdırmada Hindistan, Pakistan və KXDR hələ də nüvə sila-hının mövcudluğunda rəsmi nüvə statusuna malik deyillər, onlar rejim çərçivəsindən kənardadırlar, nüvə tərksilah prosesində iştirak etmək niyyətində deyillər, bununla da yayılmama rejimi indiki formada mövcudluğunun zəruriliyi faktını şübhə altına alır. İsrail "zirzəmidə bomba" mövqeyinə sadiqdir, nüvə silahlarının azaldılması və sonradan tərk edilməsi sahəsində heç bir addım atmaq niyyətində deyil. İran ABŞ və İsrailin bölgədə təcavüzkar siyasətinin davamlı təhlükəsi fonunda təhlükəsiz hiss edə bilməz. Odur ki, İran nüvə silahı əldə etməkdə israrlıdır.

ABŞ-ın liberalizmə söykənən siyasi arenada “yumşaq güc”ün tətbiqini gerçəkləşdirmək prosesinin uğursuzluğu onun hegemonluğuna xidmətdən və İran ali liderinin ilk gündən ortaya qoyduğu realist mövqedən qaynaqlanır. İran siyasi hakimiyyəti geosiyasi vəziyyətini konkret qiymətləndirir, bölgədəki strateji hədəfləri getdikcə çox əhəmiyyət kəsb edir.

Bölgədə regional dəyişikliklərin bilavasitə İranla bağlılığı siyasi tənliklərin həllini İran nəzərə alınmaqla zəruri edir. ABŞ-ın XXI əsrdə İranın nüvə siyasətinə geosiyasi yanaşması enerji təhlükəsizliyi, nüvə silahlarının yayılması, sabitlik, terrorla mübarizə meylləri, strateji ittifaqlar və diplomatik-iqtisadi alətlərin labirintli birləşmələrini əhatə edir. Bu Fars körfəzinin mürəkkəb geosiyasi mozaikasını əks etdirir, burada enerji anbarları, regional sabitlik, nüvə silahlarının yayılmaması tələbləri, terrorla mübarizə imperativləri və strateji ittifaqlar ABŞ-ın si-

yasət qərarlarının qəbul edilməsi hesablamalarını əhatə edir. Bu geosiyasi bataqlıqda hərəkət etmək qlobal strateji mühitin konturlarını formalaşdıran mürəkkəb problemdir.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**


1. XXI əsrdə ABŞ-ın Mərkəzi Asiyadakı geosiyasəti və İran faktoru// Sivilizasiya, № 4, 2021, s.43-54
2. Corc Buş administrasiyası dövründə (2001-2008) ABŞ-ın İran siyasəti //3-cü Beynəlxalq Elmi Araşdırmalar Kofransı.15-16 oktyabr 2021, s.1238- 1249
3. US polıcy towards ıran durıng the George W. Bush admınıstratıon (2001-2008) 3. Internatıonal Baku Scıentıfıc Research Congress.October 15-16, 2021/ Baku, Azerbaijan Baku Eurasıa Unıversıty, p.562-565
4. ABŞ-ın İsrail-İran münasibətlərinə təsiri: Obama və Tramp dövründə İsrailin İran siyasətində nüvə proqramının yeri//Qafqazşünaslıq, № 1, 2022, s.71-86
5. İranın xarici təhlükəsizlik siyasətində nüvə proqramının yeri və rolu: ABŞ və İsrail faktoru// Sivilizasiya, № 2, 2022, s.52-63
6. İranın nüvə siyasəti: beynəlxalq amil və təsirlər// Sivilizasiya, № 3, 2022, s.27-37
7. ABŞ və İran arasında nüvə sazişi / "Müstəqil Azərbaycan: gerçəklik işığında" Respublika Konfransının materialları. Bakı: 25- 26 may 2022.- s.177-182
8. US-Iran relations in the XXI century: Obama administration`s policy towards Iran"//Uluslararası Türk Dünyası Araştırmaları Dergisi, 2023, Cilt 6, №3, p.74-86
9. İbrahimova G.Changes in Washington's policy regarding the development of nuclear energy in Iran under the Obama administration//INICIO /VOL.15 NÚM. 3 (2023): Tercer Cuartıl de *SCOPUS* para Unıversıdad Y Socıedad

Dissertasiyanın müdafiəsi "27" fevral 2025-ci il tarixində saat "11:00"-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FED 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və av [illegible] tron versiyaları Azərbaycan Respublikasının Prez [illegible] ıda Dövlət İdarəçilik Akademiyasının rəsmi in [illegible] yerləşdirilmişdir.

Avtoreferat "21" Yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.12.2024
Kağızın formatı: A5
Həcmi: 44.160
Tiraj: 80